# Birinci vitse-prezident Mehriban Əliyeva Maqomedxan Maqomedovu bürünc medal qazanması münasibətilə təbrik edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Paris Yay Olimpiya Oyunlarında ölkəmizi təmsil edən Azərbaycanın sərbəst güləşçisi Maqomedxan Maqomedovla bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Azərbaycanın sərbəst güləşçisi Maqomedxan Maqomedovu bürünc medal qazanması münasibətilə təbrik edirəm! İdmançımıza yeni qələbələr və nailiyyətlər arzulayıram!"

---

Azərbaycan.- 2024.- 13 avqust (№ 171).- S.1.